# Prezident təqaüdçüsünün sənət zirvəsinə aparan yolu

Dilarə Müzəfferli 2008-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının sənətşünaslıq fakültəsinin təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisasının bakalavr pilləsinə qəbul olub. 2012-ci ildə akademiyanın bakalavr pilləsini, 2014-cü ildə isə magistr pilləsini fərqlənmə diplomu ilə bitirib. Təhsil aldığı illərdə akademiyada və respublika səviyyəsində keçirilən elmi konfransların, mədəniyyət layihələrinin iştirakçısı olub.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəssamlıq fakültəsinin təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasında müəllim işləyən Dilarə Müzəfferli hazırda doktorantura pilləsində təhsil alır. O, Prezident təqaüdçüsüdür. Dilarə Müzəfferli Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə istedadlı və yaradıcı gənclərin II Respublika toplantısı çərçivəsində keçirilən layihələrdən biri olan “Gənc istedad - 2012” təsviri sənət sərgi-müsabiqəsinin münsiflər heyətinin üzvü və sərgi kataloqunun



müəllifidir. Onun 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun II qrant müsabiqəsi çərçivəsində fondun maliyyə dəstəyi ilə müəllifi və rəhbəri olduğu gənc rəssamların əsərlərindən ibarət “Gənc istedadların yaradıcılığında ənənə və müasirlik” adlı sərgi-layihəsi həyata keçirilib. Bu layihə çərçivəsində gənc rəssamların əsərləri Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Muzey-Sərgi Kompleksində nümayiş etdirilib. 2015-ci ildə VI qrant müsabiqəsi çərçivəsində isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə “Tolerant Azərbaycan gənci” müsabiqə-sərgi layihəsi həyata keçirilib. “Bakı-2015” ilk Avropa Oyunları zamanı Atletlər kəndində təşkil olunan yeganə təsviri sənət sərgisi də məhz “Tolerant Azərbaycan gənci” olub.

Dilarə Müzəfferli 26-28 oktyabr 2015 -ci il tarixlərində Fransanın paytaxtı Paris şəhərində UNESCO-nun Baş Qərargahında keçirilən IX UNESCO Gənclər Forumunda UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının təşəbbüsü və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Azərbaycan gənclərini təmsil edib.

O, forumla əlaqədar olaraq UNESCO-nun əməkdaşları tərəfindən fasilitatorluq üzrə təlimlərə dəvət olunub.

Söhbət zamanı Dilarə Müzəfferli öz təəssüratını bizimlə bölüşdü və qeyd etdi ki, UNESCO-nun Baş direktoru İrina Bokova ilə görüşü, əsərlərinin onun tərəfindən maraqla qarşılanması onda fəxarət hissi oyadıb və daha möhtəşəm layihələr üzərində işləməyə sövq edib. Azərbaycan-UNESCO əlaqələrinin inkişafı və bu sahədə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə keçirilən mühüm tədbirlərin nəticəsidir ki, UNESCO-nun Baş direktoru Azərbaycandan olan gənc iştirakçının əsərlərinin təqdimatına xüsusi yer ayırıb.